2020.- 19 avqust.- S.20.

iki sahil

# "Xarqo" ləqəbli partizan

**Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan xalqının igid oğlu, Fransanın Milli Qəhrəmanı Əhmədiyyə Cəbrayılovun 100 illiyinin təntənəli surətdə qeyd edilməsi haqqında Sərəncam imzalayıb.**



Yazıçı Zaman Qarayevin keçən əsrin altmışıncı illərinin sonunda qələmə aldığı "Xarqo" əsəri hər bir azərbaycanlı ailəsinin sevimli kitabı idi. Əsər "Xarqo" ləqəbli qəhrəmanımız Əhmədiyyə Cəbrayılovun məşəqqətli həyatı və döyüş yollarından bəhs edir.

Əhmədiyyə Cəbrayılov 1920-ci il sentyabrın 20-də Şəki rayonunun Oxud kəndində anadan olub. 1935-ci ildə Şəki Kənd Təsərrüfatı Texnikumunun aqronomluq fakültəsinə qəbul edilən Əhmədiyyə 1938-ci ildə oranı bitirib Quba-Qusar-Xaçmaz-Dəvəçi-Yalama rayonlarında ipəkçi işləyib. 1941-ci ildə II Dünya müharibəsinin başlaması ilə könüllü olaraq cəbhəyə gedib. Rusiyanın Orconikidze vilayətinin Nevinnomısk şəhərindəki aviasiya məktəbində hazırlıq keçib. Bir neçə ay davam edən kurslardan sonra kiçik leytenant rütbəsi alaraq Moskva yaxınlığında yerləşən 35-ci divizionun bombardmançı eskadriliyasında texniki xidmət sahəsinə təyin olunub.

1942-ci ilin aprelində Ukraynaya göndərilən Əhmədiyyə orada 350-ci polkun siyasi rəhbərinin köməkçisi təyin olunub. Bu polkun tərkibində o, Ukraynanın Barvinki-Lozovaya-İzyum rayonları ətrafındakı vuruşmalarda iştirak edib. Döyüşlərdə göstərdiyi şücaətlərə görə növbədənkənar baş leytenant rütbəsi verilib.

1942-ci ilin aprel və ya may aylarında onun təyyarəsi Kursk ətrafında vurulub. Şimali Donets çayının sahilində ağır yaralanıb və almanlara əsir düşüb. Əhmədiyyə Barvinka və Lvov yaxınlığındakı həbs düşərgələrinə göndərilib. Bir düşərgədən başqa düşərgəyə keçid üç ay davam edib. Əsirlər hər gün piyada təxminən 60 kilometr yol qət edirdilər, yorulanlar və xəstəliyə tab gətirməyənlər yerindəcə güllələnirdilər. Əhmədiyyə 1943-cü ildə dəhşətli Daxau əsir düşərgəsindən qaçmağa cəhd edib. Burada o, bıçaq əldə edərək özünü sərxoşluğa vurur, gecənin qaranlığından istifadə edərək gözətçiyə yaxınlaşır və boğazını kəsmək istəyir. Cəhd baş tutmur və nəticədə almanlar verdikləri ağır işgəncələrdən sonra onu Fransanın cənubundakı Tuluza şəhəri yaxınlığındakı Montoban həbs düşərgəsinə göndərirlər. Burada o, 4167 nömrəli əsir idi. Saxlanma şəraiti dəhşətli dərəcədə pis olan bu həbsxanada o vərəm xəstəliyinə tutulur.

1943-cü ildə həbsxana komendantının qulluqçusu Jannanın köməyi ilə fransız vətənpərvərləri ilə əlaqə yaradıb fransız dilini öyrənir. Az bir müddətdən sonra Jannanın sayəsində vətənpərvər dostları onu əsirlikdən azad edirlər. Beləliklə, Əhmədiyyə partizan hərəkatına qoşulur. Fransa Müqavimət Hərəkatının fəallarından biri olan kapitan Delplankın (ləqəbi "Düma") rəhbərlik etdiyi Tarn və Qaron departamentlərindəki 4-cü eskadrona qəbul edilən Əhmədiyyə Cəbrayılovun gizli ləqəbləri "Xarqo", "Fraji", "Qoçaq", "Rus Armed", "Mişel" və s. olub. Almaniya hakimiyyət orqanları igid partizanın başına 10 min marka pul mükafatı təyin etmişdilər.

1944-cü il mayın 22-də Əhmədiyyəni əvvəlcə Kaberta partizan dəstəsinə, sonra isə kapitan Delplankın komandanlıq etdiyi "Düma" Gizli Ordusuna keçirirlər. Əhmədiyyə bu dəstənin Tarn və Qaronun azad edilməsi uğrunda apardığı bütün döyüşlərdə iştirak edir. O, 1944-cü il 19 avqustun 19-da Montobanın azad edilməsində igidlik nümunəsi göstərib. Avqustun 20-də azad edilmiş Parisdə general Şarl de Qoll Əhmədiyyə Cəbrayılovla görüşür. Bu görüşü o zaman çəkilmiş bir fotoşəkil də təsdiq edir. Həmin dövrdə Fransa müvəqqəti hökumətinin prezidenti olan Şarl de Qollun iştirak etdiyi banketdə Əhmədiyyəni də görmək olar. Avqustun 28-də Əhmədiyyə Montobanda yaradılan 3-cü atıcı briqadaya daxil olaraq Vozj və Elzasdakı döyüşlərdə iştirak edib.

1945-ci il martın 1-də bir sıra tapşırıqlarla yanaşı, Əhmədiyyə Cəbrayılov dəmir yol xətlərini partladaraq düşmənin minlərlə fransızı Almaniyadakı həbs düşərgələrinə aparmalarına mane olub. Həbs düşərgəsinə aparılan 500-ə yaxın fransız uşağı xilas edən zaman yaralanır və alman zabiti formasında olduğu üçün bir müddət alman hərbi qospitalında müalicə alır. Müalicəsi bitdikdən sonra Albi şəhərinə hərbi komendant təyin olunur. Bir müddət partizanlara çox əhəmiyyətli məlumatlar ötürür. Daha sonra bütün komendantlıq zabitlərini əsir götürərək partizanlara təhvil verir. O, körpüləri sıradan çıxarır, düşmənin ərzaq və silah anbarlarını, faşist zabitlərinin yaşadıqları evləri yandırır. Onun başçılığı altında Lion şəhərinin mərkəzində düşmən tankları məhv edilir. Müvəffəqiyyətlə aparılan təhlükəli əməliyyatların müqabilində Fransa Kommunist Partiyasının baş katibi Moris Torez ona hədiyyə olaraq tapança bağışlayır.

Əhmədiyyə Cəbrayılov 1945-ci ilin mayında Birinci Fransız Ordusunun tərkibində yenidən Vozj və Elzasdakı döyüşlərə qatılır.

1946-cı ildə Əhmədiyyə qəti qərara gəlir ki, vətəninə qayıtsın. Fransa onun hərbi şücaətlərini layiqincə qiymətləndirir və o, ölkənin orden və medalları ilə təltif olunur, o cümlədən şəxsi igidliyə görə "hərbi medal"a (bu medal sıravi əsgərə hərbi paradda generaldan irəlidə addımlamaq hüququ verir) layiq görülür.

1946-cı il noyabrın 25-də Şarl de Qollun köməyi ilə Əhmədiyyə SSRİ-yə qayıdır. Burada onu şübhə ilə qarşılayırlar və Moskvadakı yoxlamaların birində onun mükafatlarının bir hissəsi əlindən alınır.

Böyük çətinliklərdən sonra Şəkiyə qayıdan Əhmədiyyə 1947-ci ildə Süreyya xanımla ailə qurur, 1948-1962-ci illərdə bu nikahdan yeddi uşaq dünyaya gəlir. 1964-cü ildə Kirovabad (Gəncə) Kənd Təsərrüfatı İnstitutunda təhsilini davam etdirir.

1966-cı ildə Fransa prezidenti Şarl de Qoll SSRİ-yə səfəri zamanı Əhmədiyyə Cəbrayılovu görmək istədiyini bildirir və o, Moskvaya çağırılır. 1968-ci ildə "vətən xaini" adı onun üstündən götürülür və bəraət verilir. 1970-ci ildə Kənd Təsərrüfatı İnstitutunda təhsilini başa vurduqdan sonra Şəki rayonunun Nərimanov adına kolxozunda baş aqronom işləyir. 1971-ci ildə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunur.

1972, 1975, 1982-ci illərdə ona döyüşlərdə iştirak etdiyi yerləri gəzməyə icazə verilir. O, Montoban, Rodez, Tuluza, Albi şəhərlərinə gedir, həmçinin Paris, Bordo, Strasburq, Lion, Dijon və Marseldə olur, keçmiş döyüş yoldaşları ilə görüşür. 1975-ci ildəki səfəri zamanı o, Fransa Senatında senator Jak Düklo tərəfindən qəbul edilir və ona bu görüşdən xatirə medalı təqdim edilir.

İgid partizan 1976-cı ildə "Oktyabr İnqilabı" ordeni ilə təltif olunur. 1977-ci ildə Tarn və Qaronda Fransa partizan hərəkatında birgə iştirak etdiyi Rene Şambar SSRİ-yə gəlir və Əhmədiyyə Cəbrayılovla görüşür.

1986-cı ildə Əhmədiyyə Cəbrayılov Fransanın 5 mükafatına layiq görülür - Müharibə Xaçı, Hərbi Şücaət Xaçı, Fransa Müqavimət hərəkatı medalı, İgidliyə görə medal, Yaralanmağa görə medal. 1990-cı ildə Şarl de Qollun anadan olmasının 100 illiyinə həsr olunmuş mərasimlərdə iştirak etmək üçün Parisə dəvət olunur. 1994-cü il yanvarın 6-da Front National Milli Hərəkat məmuru Rene Rassel Əhmədiyyə Cəbrayılova Fransa Müqavimət hərəkatında iştirakını təsdiqləyən sənədi təqdim edir.

Əhmədiyyə Cəbrayılov 1994-cü il oktyabrın 10-da avtomobil qəzasında həlak olub. İgid atanın igid oğlu, polis kapitanı Mikayıl Cəbrayılov Dağlıq Qarabağ uğrundakı döyüşlərdə şəxsi nümunə göstərib. Döyüşlərdən birində həlak olan Mikayıl Cəbrayılov Azərbaycanın Milli Qəhrəmanı kimi xalqımızın qəlbində əbədi yaşayacaqdır. Şəkidə qəhrəman ata və oğulun adları əbədiləşdirilərək heykəlləri ucaldılıb.

**Vəli İlyasov,**
***"İki sahil"***